# Azərbaycan informasiya müharibəsinin də qalibidir




## Ermənistanla müharibə bitsə də, informasiya müharibəsi davam edir

***Sosial şəbəkələrdə üstünlüyü əldə etmək üçün, əlbəttə ki, orada paylaşılan məlumat da təsirli olmalıdır, həqiqəti əks etdirməlidir, bütün normal qaydalara uyğun olmalıdır. Çünki Ermənistan da çalışırdı ki, sosial şəbəkələrdə bizimlə mübarizə aparsın, amma onların mübarizəsi müharibədəki mübarizəyə bənzəyirdi – çox alçaqcasına, çox namərdcəsinə. Onların mübarizə üsulu böhtan, yalan və təhqir idi. Bizimki isə həqiqət və necə deyərlər, ümumi davranış qaydalarına riayət etmək əsasında atılan addımlar idi.***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bu sətirləri qələmə almaq istəyəndə fikirləşdim ki, oxucuya demək istədiklərimi birbaşa öz fikirlərimlə deyil, xalqımızın tanınmış ziyalılarından iki nəfərin ürək sözləri ilə başlayım. Birinci: Xalq artisti, professor, "Şöhrət" və "Şərəf" ordenli bəstəkar Tofiq Bakıxanovla Ermənistan üzərindəki qələbəmizin elan edilməsindən az sonra olan söhbətimizdə sənətkar belə demişdi:***

– Həm təqaüddə olduğuma, həm də pandemiyaya görə günümün çoxu televiziya qarşısında keçir. Torpaqlarımızın düşməndən azad edilməsi üçün aparılan müharibə günlərində isə televiziyaya daha çox cənab Prezidentin xarici jurnalistlərə verdiyi müsahibələrlə tanış olmaq üçün baxırdım. İlahi, insan nə qədər səbrli və məlumatlı ola bilərmiş? Cənab İlham Əliyev ona verilən qərəzli sualların heç birinə əsəbiləşmirdi. Əksinə, öz cavablarını faktlar və arqumentlərlə elə əsaslandırırdı ki, qarşısındakı jurnalistlər hansı missiya üçün gəldiklərini unudaraq, əsl simalarını gizlədə bilmir, ermənilərin vəkilinə çevrilirdilər. Mənə elə gəlir ki, İlham Əliyev hansısa qərəzli suala, məkrli məqsədə görə əsəbiləşsəydi, biz informasiya sahəsində bu boyda qələbə qazana bilməzdik.

İkinci: Akademik Ziyad Səmədzadənin şanlı qələbəmizdən sonrakı məqalələrindən birində belə məqam var idi: "Aydın oldu ki, əksər Qərb KİV-nin əməkdaşları Prezident İlham Əliyevə ünvanladıqları suallar zamanı erməni lobbisinin sifarişlərini yerinə yetiriblər. Bəzi KİV-in suallarının tamamilə eyniyyət təşkil etməsi, bəzi sualların daha çox ittihama bənzəməsi, bəzi suallardan düşmənin məğlubiyyət ruhunun hiss olunması, bəzi suallarda Azərbaycana qarşı ənənəvi qarayaxmaların yer alması göstərirdi ki, bu sualların sifarişi dünya erməniliyindən və erməni lobbisindən gəlir".

Əslində, Azərbaycan Prezidentinin həmin fəaliyyəti bu sahədə yenilik deyil, dünya hərb tarixində çoxdan mövcud olan informasiya müharibəsinin davam etdirilməsi idi. Ancaq bizim Ali Baş Komandanımız yüz illər boyu davam edən informasiya müharibəsini də məhz elə savaş meydanındakı hərbi əməliyyatları apardığı kimi tamamilə özünəməxsus və modern şəkildə apara bildi. İlham Əliyevin həmin 44 gündə xarici jurnalistlərə verdiyi müsahibələr sübut etdi ki, o, təxminən, 14-15 il əvvəl diplomatlarımız qarşısında çıxış edərkən dönə-dönə səsləndirdiyi "hücum diplomatiyası"nı sonda informasiya müharibəsi ilə, onların hər ikisini isə XXI əsrin müharibəsində reallaşdırdığı taktiki və strateji hərbi planlarla məharətlə əlaqələndirmişdir.

***(ardı 2-ci səhifədə)***

# Azərbaycan informasiya müharibəsinin də qalibidir

*(əvvəli 1-ci səhifədə)*

Dünya yaxşı bilirdi ki, biz müstəqilliyin ilk illərində tamamilə informasiya blokadasında yaşamağa məhkum idik. Ulu öndər Heydər Əliyev siyasi hakimiyyətə qayıdandan sonra həmin mühasirənin yarılması üçün çox sayda uğurlu addımlar atılmışdı. Ancaq düşmənin əsrlərdən bəri qurduğu fitnə-fəsad torunun mühüm tərkib hissələrindən olan informasiya mühasirəsi elə güclü idi ki, biz müstəqilliyin ilk 10 ilində həmin toru tamamilə dağıda bilməzdik. Bunun üçün İlham Əliyev müdrikliyinin indi bizə məlum olan nəticəsini gözləmək lazım imiş.

Dövlət başçımız fevralın 2-də keçirilmiş Gənclər Forumunda özünün 44 günlük müharibə zamanı əcnəbi jurnalistlərə verdiyi müsahibələrdən danışmayaraq xatırlatdı ki, Vətən müharibəsi dövründə bizim gənclərimiz sosial şəbəkələrdə çox fəal oldular və deyə bilərəm ki, bütövlükdə müharibə zamanı gedən informasiya müharibəsində də biz qalib gəldik: “Həm ənənəvi informasiya resurslarından istifadə edərək, eyni zamanda, sosial şəbəkələrdən istifadə edərək. Biz bir daha gördük ki, gənclər arasında Vətənə nə qədər böyük sevgi var. Onu da bildirməliyəm ki, təkcə Azərbaycan vətəndaşları yox, dünya azərbaycanlıları da bu işlərə qoşuldular – könüllü olaraq, öz təşəbbüsləri ilə…

Bu, təkcə bizim fikrimiz deyil, beynəlxalq təhlilçilər də təəccüblə qeyd edirlər ki, Azərbaycan informasiya məkanında üstünlük əldə etdi. Nə üçün təəccüblə? Çünki həmişə belə oturuşmuş bir fikir var idi ki, erməni lobbisi, erməni təşkilatları hər yerdə fəaldırlar, indi dünyanın aparıcı ölkələrindəki bir çox aparıcı media qurumlarına onlar rəhbərlik edirlər və bu imkandan istifadə edib Azərbaycana qarşı şər-böhtan kampaniyası aparırlar. Yəni, hər kəs gözləyirdi ki, informasiya məkanında Ermənistan, yəni, necə deyərlər, erməni tezisləri üstünlük təşkil edəcək. Görəndə ki, biz Ermənistanı burada da üstələdik, təəccüb etdilər. Bu, nəyi göstərir? Onu göstərir ki, ilk növbədə, tərbiyə, ikinci növbədə, bilik, üçüncü növbədə isə müasir texnologiyalara çıxışımız oldu”.

Dövlət başçımızın fikrincə, bizim informasiya müharibəsindəki qələbəmizin əsasını həqiqəti söyləməyimiz təşkil edirdi. Çünki hər gün həm Prezident, həm də digər orqanlar həqiqəti deyirdilər. Ermənilər isə yalan danışırdılar və bu gün də erməni hərbçiləri və orduda mediaya cavabdehlik daşıyan insanlar da orada artıq lağa qoyulur. Erməni jurnalistlər həmin adamların adını yalan rəmzinə çeviriblər: “Avropanın, Amerikanın bir çox mətbu orqanlarında Azərbaycan haqqında yayılan yalanların arxasında biz erməni lobbisinin, necə deyərlər, uzun erməni qulaqlarını görürük. Yəni, yazıların 90 faizi ermənilər tərəfindən təşkil edilib. Onlar başqa adlar altında gizlənirlər, pərdələnirlər, amma biz bilirik, bu, hansı mənbədən qaynaqlanır və biz buna hazır olmalıyıq. Çünki müharibə başa çatdı, mən demişəm ki, biz üçüncü müharibə istəmirik. Əgər özümüz üçün təhdid görməsək, biz hər hansı bir addım atmaq fikrində deyilik, ancaq informasiya müharibəsi davam edir və bu müharibənin sonu olmayacaq”.

Türkiyə mətbuatı yazır ki, biz çoxsaylı müharibələr görmüşük. Hətta iki dünya müharibəsinin tarixini yaxşı bilirik. Ancaq hansısa dövlət başçısının müharibə dövründə bu sayda aparıcı KİV-in maraq dairəsinə düşdüyünü görməmişdik. Cəmi 44 gün davam edən İkinci Qarabağ müharibəsi dövründə Prezident İlham Əliyev 30-dan çox xarici KİV-ə müsahibə verdi. Həmin müsahibələr isə Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılmasını təmin etdi.

Ekspertlərin bu arqumentlə çıxış etməsi də tamamilə başadüşüləndir. Çünki dövlət başçımızın müsahibə verdiyi mətbuat vasitələrinin sırasında, demək olar ki, dünyanın aparıcı kütləvi informasiya vasitələrinin adları var: Rusiyanın “Rossiya-1, “Pervıy”, RBK televiziya kanalları, “Ria Novosti”, “TASS” və “İnterfaks” agentlikləri, Türkiyənin “TRT Haber”, CNN-Türk, “Haber Global”, “Haber Türk”, NTV, “A Haber” televiziyaları, Fransanın “Sky News”, “France 24” televiziyaları, “Figaro” qəzeti, Almaniyanın ARD televiziyası, Yaponiyanın “Nikkei” qəzeti, ABŞ-ın “Fox News” televiziyası, İtaliyanın Rai-1 televiziyası və “La Repubblica” qəzeti, İspaniyanın EFE informasiya agentliyi, habelə dünyada yüz milyonlarla izləyiciləri olan “Əl-Cəzirə”, “Əl-Ərəbiyə”, “Euronews”, “CNN International”, “BBC News” televiziya kanalları və sair.

… Bu sətirləri dövlət başçımızın ötən il fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında səsləndirdiyi fikirlərlə tamamlamaq istəyirik: “Müharibə vaxtı 44 gün ərzində mən 30-dan artıq müsahibə verdim, çünki buna ehtiyac var idi. Mən dünyaya mesajımızı çatdırmaq istəyirdim, mən həqiqəti və mövqeyimizi dünyaya çatdırmaq istəyirdim. Hər gün mən bəyanatlar verirdim, Azərbaycan xalqına müraciətlər edirdim. Çünki buna ehtiyac var idi, xalqımızın buna ehtiyacı var idi, ordumuzun buna ehtiyacı var idi. Bilirəm ki, mənim həmin o müraciətlərim və mesajlarımın ümumi qələbəmizdə böyük rolu olmuşdur”.

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 8 fevral.- S.1;2.